# VƏFALI SƏRİYYƏ,
# YAXUD
# GÖZ YAŞI İÇİNDƏ GÜLÜŞ

## İŞTİRAK EDİRLƏR

Səriyyə – 17 yaşında bir qız, mütəllimə libasında.
Rüstəm – 20 yaşında, student, Səriyyənin məşuqu, student libasında.
Çimnaz – 40 yaşında, Səriyyənin anası.
Hüsniyyə – 15 yaşında, Səriyyənin məktəb yoldaşı.
Həmzə – 55 yaşında, Çimnazın dayısı, topsaqqal kişi, əynində çuxa, don.
Məhərrəm – 25 yaşında, intelligent.
Qurban – 35 yaşında, qoçu.
Camal – 20 yaşında, qoçu.
Səfər – 35 yaşında, Həmzənin nökəri, başında böyük papaq, əynində don və ayağında çarıq.
Axund – 55 yaşında, əynində əba, başında əmmamə, ayağında yun corab.
Molla Möhsün – 30 yaşında, tələbə, axunda həmsöhbət.
Pristav, 20 nəfər kazak və bir nəfər qız.



## BİRİNCİ MƏCLİS

Vaqe olur Həmzənin evində. Döşənmiş otaq. Divarda bir xəncər, o biri divarda bir tapança asılmış. Bir stul və bir kürsünün üstündə 2 kitab, kağız, qələm və mürəkkəb vardır. Stul üstündə Səriyyə oturub qəzet oxuyur. Bir qədərdən sonra məhzun bir halda qəzeti qoyub, kitabın arasından bir şəkil götürüb deyir:

Səriyyə. Ah, Rüstəm! Ah! Ey məhəbbətilə pərişan olduğum! Nə üçün məni yaddan çıxartdın? Nə üçün mənim halımdan xəbərdar olmaq istəmirsən? Nə üçün öz sevgilini zalımlar əlində qoyub xilas etmirsən? Biz ki, əhd bağlamışdıq ölənəcən bir-birimizdən ayrılmayaq. Hər cür əziyyətə, məşəqqətə, hətta, ölümə də razı olub, əhdimizdən dönməyək. Bəs, nə üçün sən əhdinə vəfa edib məni buradan azad etmirsən? Yox, Rüstəm, sən bivəfa deyilsən! Amma mümkün olmadığını mən də bilirəm. Nə çarə edəsən? Sən bir tək, amma bu zalımlar bihədd. Ah, Rüstəm, ürəyim çatlayır! Taqətim kəsilir! Səni görmək istəyirəm.

Fəraqi-yardan mən zarü giryan olmuşam, ya rəbb!
Cəfavü zülmi-zalımdan pərişan olmuşam, ya rəbb!
Günüm zülmət tək tarik səhrayi-məhəbbətdə...
Cidayi-şəmsü mahü çeşmü müjgan olmuşam, ya rəbb!

Rüstəm! Səndən ayrılanı bir aydır ki, gecələr yuxum gəlmir. Sübhədək sənin xəyalınla məşğulam. Gündüzləri aramım gəlmir. Həmişə səni arzu edirəm. Ürəyimdə fikrin, dilimdə adındır. İndi dəxi aşkar adını çəkməyi mənə qadağan eləyiblər. Yox, Rüstəm, mən sənsiz yaşaya bilmərəm. Ah, keçən günlər, keçən dəqiqələr! İndi zülm ilə bizi ayırdılar. Amma sən bixəbərsən! Yox! Qoy məni öldürsünlər, amma mən səndən ayrılmaram. Çünki bizi sarıyan eşq zənciri o qədər möhkəm, o qədər qüvvətlidir ki, ayrılmaq da istəsəm, bacarmaram. Bu eşqə ölümdən başqa bir çarə yoxdur.